# Ermənistan xarici təsirlərdən çıxarsa, sülh müqaviləsi bağlana bilər

"Qazax rayonunun dörd qeyri-anklav kəndinin bir güllə atılmadan Azərbaycana qaytarılması Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin parlaq qələbəsidir. Bütün təzyiqlərə, təxribatlara baxmayaraq, dövlət başçımızın siyasi iradəsi, qətiyyəti, diplomatik bacarığı bu tarixi qələbəni təmin etdi".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva deyib. Deputat bildirib ki, Prezident İlham Əliyev hər zaman dövlət və xalqın milli maraqlarını hər şeydən üstün tutub və dəfələrlə bir qarış torpağımızın belə işğal altında qalmayacağını bəyan edib. Sərhədlərin delimitasiyası prosesində atılan bu addımın heç bir vasitəçi olmadan iki dövlət tərəfindən razılaşdırılması da müsbət bir haldır. "Azərbaycan Vətən müharibəsi bitdikdən dərhal sonra Ermənistana sülh müqaviləsi bağlanması üçün beş bənddən ibarət baza prinsipini təqdim etdi. Lakin Fransa başda olmaqla bir sıra Qərb dövlətləri, o cümlədən Avropa Parlamenti Ermənistana təzyiqlər göstərməyə başladı və onu Azərbaycanla müharibəyə sövq etməyə çalışdılar. Bütün bunlara baxmayaraq, Ermənistan rəhbərliyi Prezident İlham Əliyevin regionda yaratdığı yeni reallığı qəbul etmək məcburiyyətində qaldı. Baş nazir Nikol Paşinyan Praqa görüşündə Qarabağı Azərbaycanın tərkib hissəsi olmaqla, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tanıdığını bəyan etdi. Bundan sonra Ermənistan tərəfindən sülh müqaviləsinin bağlanması istiqamətində müsbət mesajlar verilməyə başlandı", - deyə o əlavə edib.

K.Əliyeva vurğulayıb ki, Fransa və onun təsiri altında olan bəzi Avropa dövlətləri Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının aparılmasına və Cənubi Qafqazda sülhün bərqərar olmasına hər vəchlə maneə törətməyə çalışırlar: "Düşünürəm ki, 2024-cü ilin sonuna kimi Ermənistan rəhbərliyi xarici qüvvələrin təsirindən çıxacaq və özündə Azərbaycanla sülh müqaviləsi imzalamağa cürət tapacaq. Ermənistan müstəqil yaşamaq və inkişaf etmək istəyirsə, min kilometrlərlə uzaqda yerləşən, müstəmləkə siyasəti yürüdən dövlətlərlə deyil, region ölkələri, xüsusən də Azərbaycanla səmimi qonşuluq və mehriban şəraitdə yaşamalı, iqtisadi, siyasi əlaqələrin qurulmasına üstünlük verməlidir".

Deputat sonda qeyd edib ki, Azərbaycanla sülh müqaviləsi bağlanacağı təqdirdə Ermənistan regional iqtisadi layihələrdə iştirak edərək, bugünkü ağır iqtisadi durumdan çıxa bilər.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 4 iyun, № 116.- S.7.